**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ SİNİFLƏRDƏ TƏLİMİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ LAYİHƏLƏR METODUNDAN İSTİFADƏ ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Cavahir İsaxan qızı Maçanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Psixologiya və pedaqogika kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Vidadi Paşa oğlu Bəşirov** |
| Rəsmi opponentlər: | pedaqogika elmləri doktoru, professor<br>**Akif Nurağa oğlu Abbasov** |
| | pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Heydər Allahyar oğlu Cəfərov** |
| | pedaqogika üzrə fəlsəfə doktoru<br>**Mübariz Tahir oğlu Süleymanov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | fizika-riyaziyyat elmləri doktoru, professor<br>**Hamlet Abdulla oğlu İsayev** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | pedaqogika üzrə fəlsəfə doktoru<br>**Gülbəniz Vaqif qızı Sultanova** |
| Elmi seminarın sədri: ____________ | pedaqogika elmləri doktoru, professor<br>**Fərahim Balakişi oğlu Sadıqov** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə Azərbaycanda təhsilin strukturu və məzmunu sahəsində islahatlar həyata keçirilir. İslahatlar pedaqoji fəaliyyətin geniş sahələrini əhatə edir. 2008-ci ildə I-IV siniflər üçün fənn kurikulumu hazırlanıb təsdiq olunmuşdur. Azərbaycan təhsilşünaslarını, müəllimlərini, tədqiqatçı alimlərini narahat edən əsas məsələ təhsilin səmərəliliyinin yüksəldilməsidir. Bu gün təhsil qarşısında uşaqların hərtərəfli inkişafı, onların yaradıcılıq qabiliyyətləri, özünütəhsil bacarıqlarının formalaşdırılması, sosial münasibətlərdə şəxsi özünü realizəsi kimi vəzifələr durur.

Hazırki şəraitdə cəmiyyətdə pedaqoji prosesin açar sözü, təlimin əsas anlayışı inkişafdır. Dünyanın bütün inkişaf etmiş ölkələri dərk ediblər ki, təhsil sistemində islahatların aparılması müasir dövrdə zəruridir. Şagirdin təlim prosesinin mərkəzi fiquruna çevrilməsi, şagirdlərin idrak fəaliyyətinin müəllim-tədqiqatçıların diqqət mərkəzində olması, gənclərin müstəqil düşünə, oxuya, informasiya toplaması, müxtəlif sahələrdə yeni biliklər, bacarıqlar peşələr əldə edə bilməsi və öz biliklərini müstəqil şəkildə təkmilləşdirməyə qadir olması vacibdir, çünki bütün həyat boyunca bunlarla məşğul olacaqlar. Bu gün dünya və yerli pedaqoji təcrübənin arsenasında təsbit olunan belə üsullar arasında layihə əsaslı öyrənmə əsas metodlardan biri hesab olunur.

Yeniləşən təhsil sistemi aşağıdakı şərtləri özündə ehtiva edir:

– öyrənmədə şagirdlərin fəal, müstəqil və təşəbbüskar mövqeyini formalaşdırmaq;

– ümumi təhsil bacarıqlarını inkişaf etdirmək:

– tədqiqat, əks etdirmə, özünü qiymətləndirmək keyfiyyətlərini tənzimləmək;

– şagridlərdə təkcə bacarıqları deyil, onları praktik fəaliyyətdə tətbiq etmə imkanlarını da nəzərə almaq;

– şagirdlərin emosional idrakı marağını inkişaf etdirmək lazımdır.

Bu təlim formaları öyrənmənin həyat vəziyyətləri ilə əlaqələndirilməsi prinsipinə əsaslanmalıdır.

Azərbaycan təhsilinin modernləşdirilməsi ibtidai siniflərdə yeni yanaşmaların tapılmasını tələb edir. Qeyri-ənənəvi təhsil formalarına müraciət müəllimin hər bir şagirdin fəaliyyətinə təsirini, onun fəal tədris

və praktik fəaliyyətə cəlb olunmasını nəzərdə tutur. İbtidai siniflərdə tədrisin ən səmərəli üsullarından biri layihə metodudur.

Layihə əsaslı öyrənmə əldə edilən nəticələrin təqdimatı ilə şagirdlərin müstəqil fəaliyyətləri nəticəsində istənilən bir problemi həll etməyə imkan verən müəyyən bir təlim-idraki üsulları əhatə edir. Layihə metoduna yeni pedaqoji texnologiya kimi yanaşdıqda, onun tədqiqat, axtarış və problem həlletmə fəaliyyətlərini özündə birləşdirən, mahiyyət etibarilə yaradıcı xarakter daşıyan metodlar sistemi olduğu görünür.

Layihə əsaslı öyrənmə didaktik mahiyyətinə görə şagirdlərin yaradıcılıq qabiliyyətlərini, tənqidi və yaradıcı düşünmə bacarıqlarının eləcə də biliklərə müstəqil şəkildə yiyələntmək və tətbiq etmək bacarıqlarının inkişafina xidmət göstərir. Bu metod şagirdlərə idraki və praktiki problemləri həll etməyi, informasiya məkanında düzgün mövqe tuta bilməyi, alınan məlumatları təhlil etməyi öyrədir.

İbtidai sinif dərslərinin əsas məqsədi şagirdlərə yalnız bilik bacarıq vərdişlərini toplamaq deyil, həm də öyrəndikləri biliklərin tətbiqi, audio vizual vasitələrlə istifadəni zəruri edir, şagirdlərin kommunikativ səriştələrəni, tənqidi, yaradıcı və tətbiqi düşünmə tərzini formalaşdırmağa xidmət edir.

Psixologiya və pedaqogikada humanist istiqamətin prinsiplərinə əsaslanan yanaşmadan istifadə olunur. Layihə metodu öz mahiyyətinə görə tədrisin fərdiləşdirilməsini, təhsilalanın şəxsiyyətinə, onun tələbat və imkanlarına diqqət yetirilməsini nəzərdə tutur. Bu metod əməkdaşlıq və öyrənənlərin aktiv fəaliyyətə cəlb olunması prinsiplərinə əsaslanır.

İngilis dili və həyat bilgisi dərslərinin tədrisində layihə metodundan istifadə şagirdlərə idrak vasitəsi, öz fikirlərini ifadə etmək, başqa insanların fikirlərini başa düşmək kimi istifadə etməyə imkan yaradır. Bu, şagirdlərin diqqətini ifadə formasından məzmuna çevirmək və ətraf aləmi biliyə cəlb etmək, bununla da sosial-mədəni səriştənin əhatə dairəsini genişləndirmək üçün ən təsirli üsuldur.

Mövzunun işlənmə səviyyəsi ilə bağlı bir sıra Azərbaycan tədqiqatçıları layihə əsaslı öyrənmənin təlim və tərbiyə prosesində geniş imkanlara malik olduğunu qeyd etmişlər. H.H. Əhmədov, N.E. Zeynalova, A.M. Nəzərli, L. Məmmədova, layihə metodunun təlim və tərbiyənin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsində mühüm rol oynadığını vurğulamışlar.

Eyni zamanda, mövzunun işlənmə səviyyəsi ilə bağlı bir sıra xarici tədqiqatçı da layihə əsaslı öyrənmənin təlim və tərbiyə prosesində geniş imkanlara malik olduğunu qeyd etmişlər. Tomas C.V., Beyns L., İosif F., İakovos T., Muhammed N., M.Y.Buxarkina, E.S.Polat, T.E.Saxarova layihə metodunun təlim və tərbiyənin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsində mühüm rol oynadığını vurğulamışlar.

Həqiqətən, müasir Azərbaycan məktəbində, o cümlədən ibtidai siniflərdə layihə metoduna əsasllanan fəaliyyətlərin tətbiqi geniş yayılmışdı. Bu metod, öz növbəsində, dünya pedaqoji təcrübəsində prinsipial olaraq yeni deyil, lakin o, Azərbaycan təhsilinin müasir prinsiplərinə tam cavab verir. Bu metod səriştə əsaslı, şagirdyönümlü, sistemli, fəaliyyətə əsaslanan yanaşma ilə təmin etmək olar.

Problemin aktuallığı, onun nəzəri və praktik əhəmiyyəti və mövcud ziddiyyətlər tədqiqat mövzusunun müəyyənləşdirməsini şərtləndirdi. Mövzu aşağıdakı kimi formalaşdırıldı: "İbtidai siniflərdə təlimin səmərəliliyinin yüksəldilməsində layihələr metodundan istifadə üzrə işin sistemi".

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ibtidai siniflərdə tədris prosesi; tədqiqatın predmeti ibtidai siniflərdə həyat bilgisi və ingilis dilinin tədrisində layihə metodunun tətbiqi metodikasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ibtidai siniflərində layihə metodunun tətbiqi ilə şagirdlərin kommunikativ səriştələrinin və hərtərəfli inkişafının pedaqoji əsaslarının nəzəri cəhətdən əsaslandırılması və eksperimental qaydada yoxlanılması üçün metodika hazırlamaq.

Tədqiqatın **vəzifələrinə** aşağıdakılar daxildir:

1. İngilis dilinin öyrənilməsində kommunikativ səriştənin inkişafının səmərəli vasitəsi kimi layihə metodunun tətbiqinin əsas metodoloji və nəzəri yanaşmalarını ümumiləşdirmək.

2. İlkin mərhələdə tədqiqatın məqsədi Həyat bilgisi fənnin xüsusiyyətlərini, onun interaktiv gündəlik həyatı əhatə edən və şagirdlərin sosial mənəvi inkişafına yönəlmiş məzmunu araşdırmaq.

3. Dissertasiyada nəzərdən keçirilən problem baxımından həyat bilgisi dərslərinin məzmununu təhlil etmək.

4. İbtidai sinif müəllimləri üçün həyat bilgsi dərsinin planının layihə əsaslı öyrənmə (LƏÖ ) üsulu əsasında hazırlamaq,

5. Layihə fəaliyyətlərini hazırlayarkən və həyata keçirərkən şagirdlərin idraki fəallığının ardıcıllığını tənzimləmək,

6. Şagirdləri layihə fəaliyyətinə hazırlamaq üçün tapşırıqlar sistemini hazırlamaq,

7. Dayanıqlı motivasiyanın formalaşdırılması, şagirdlərin idrak maraqlarının, özünü və qarşılıqlı qiymətləndirmə (refleksiya) bacarıqlarının inkişafı üçün layihə metodundan istifadə şərtlərini müəyyən etmək,

8. İngilis dili və həyat bilgisi dərslərində, o cümlədən məktəb miqyasında həyata keçirilən layihə zamanı şagirdlərin layihə fəaliyyətinin xüsusiyyətlərini müəyyənləşdirmək.

9. İbtidai siniflərdə eksperimental təlim zamanı bu metodun səmərəliliyini yoxlamaq və s.

**Tədqiqat metodları.** Problemlərin həlli üçün aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: 1. Nəzəri tədqiqat metodları: təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, elmi ədəbiyyatın və normativ sənədlərin öyrənilməsi. 2. Empirik (pedaqoji) tədqiqat metodları: müşahidə, müsahibə, sorğu, məktəb təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, pedaqoji eksperiment. 3. Məlumatların işlənilməsi metodları: riyazi-statistik təhlil.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Layihə metodunun ibtidai siniflərdə tətbiqi təlimin səmərəliliyinin yüksəldilməsi, şagirdlərdə davamlı təlim motivasiyasının formalaşdırılması, idrak maraqlarının, tənqidi təfəkkürün və intellektual bacarıqların inkişaf etdirilməsi üçün yaxşı imkanlar açır.

2. Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların, əməkdaşlıq vərdişlərinin, müstəqil fəaliyyət və problem həll etmə bacarıqlarının inkişafınd lyihə metodundan istifadənin özünəməxsus müsbət təsiri vardır.

3. Şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla sinifdə layihə fəaliyyətinin təşkili zəruridir.

4. Layihə fəaliyyətinin planlaşdırma,hazırlıq, icra və təqdimat mərhələləri əsasında təşkil edilməsi, həmçinin nəticələrin qiymətləndirilməsi imkanlarının nəzərə alınması onun səmərəliliyini artırır.

**Tədqiqatın elmi yeniliyi** ibtidai sinif şagirdlərinin kommunikativ səriştələrinin inkişafı üçün layihə fəaliyyətlərinin təşkili və aparılması

metodikası işlənib hazırlanmış, ingilis dili və həyat bilgisi dərslərində şagirdlərin layihə fəaliyyətinin təşkili xüsusiyyətləri, fənlərarası əlaqələrin həyata keçirilməsinin real imkanları müəyyən olunmuşdur.

İngilis dili və həyat bilgisi dərslərinin ibtidai mərhələsində layihə metodundan istifadənin səmərəliliyinin nəzəri və eksperimental əsaslarına aydınlıq gətirilir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti:

1) layihə metodundan faydalanmaqla ingilis dili fənninin öyrənilməsinin ilkin mərhələsində şagirdlərin dil səriştəsinin təkmilləşdirilməsinin daha səmərəli yolları nəzəri və eksperimental cəhətdən müəyyənləşdirmişdir;

2) həyat bilgisi dərslərində layihə metodundan istifadə etməklə şagirdlərin motivasiyasının yüksəldilməsi, idrak maraqlarının, özünə və qarşılıqlı hörmət bacarıqlarının inkişaf etdirilməsi imkanları öz ifadəsini tapmışdır;

3) layihələrin tipologiyası dəqiqləşdirilib sistemə salınmışdır;

4) layihə fəaliyyəti üzrə zəruri bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üçün didaktik materiallar əsas götürülmüşdür.

Tədqiqatın praktik əhəmiyyəti:

1. Təlim prosesində müəllimlərin istifadə edə biləcəkləri materialların layihə üsulu ilə səmərəli tədrisi və təşkili **mümkün olacaqdır.**

2. Tətqiqatın nəzəri müddəaları, praktik tövsiyələr, ali təhsil müəssiələrində ingilis dili və həyat bilgisi fənnlərinin tədrisi metodikası üzrə mühazirə və seminar məşğələlərinə, həmçinin müəllim hazırlığı kurslarına daxil edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları respublikanın müxtəlif universitetlərinin elmi jurnallarında və eləcə də xarici ölkələrdə nəşr edilən toplularda dərc edilmiş 11 məqalə və 9 konfrans materialında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Psixologiya və pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, iki fəsil, yeddi paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqat metodları haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **"İbtidai sinifdə təlim prosesində layihə metodunun tədqiqinin nəzəri aspektləri"** adlanır. Fəsil 3 paraqrafdan ibarətdir.

I fəslin ***"Layihə metodunun təlim texnologiyası kimi yaranması və onun mahiyyəti"*** adlanan 1-ci paraqrafında məktəbdə təhsilin əsas vəzifələrindən biri təhsil və idrak fəaliyyətinin təşkilində şagirdlərin müstəqilliyinin formalaşması və inkişafıdır. Təbii ki, əsas prioritet hər bir şagirdin ümumi potensialını açmaqdır ki, bu da şagirdə müstəqil fəaliyyət imkanı verilmədikdə müəyyən çətinliklər yaradır.

Paraqrafda qeyd olunur ki, təlim üçün yüksək motivasiya təmin edə bilən yaradıcı fəaliyyətlərdən biri də layihə-metodikasıdır ki, o, təlimə fərdi-fəal yanaşmaya əsaslanır. Layihənin metodikası konkret problemin həllini, tədqiqini nəzərdə tutur və konkret alqoritmə tabedi. Layihə metodu problemin ətraflı işlənməsi yolu ilə didaktik məqsədə çatmaq üçün bir yoldur.

Layihə əsaslı öyrənmənin keçdiyi yolu 5 mərhələyə bölmək mümkündür. Bu mərhələlər Avropanın memarlıq məktəblərində, Amerikaya transferi və tədrisdə istifadəsi, ümumi dövlət məktəblərində, Amerikadan Avropaya köçürülməsi və layihə əsaslı öyrənmənin yenidən tədris prosesinə gətirilməsi və beynəlxalq səviyyədə təbliği mərhələsidir ki, bu mərhələ Mikal Knollun adı ilə bağılıdır.

Daha sonra layihə əsaslı təlim ilə bağlı ideyaların Azərbaycanda XX əsrin əvvələrində meydana gəlməsi ilə bağlı məlumat verilir. Bu dövrdə Azərbaycan SSRİ-nin tərkibində idi. XX əsrin əvvəllərində Rusiyada layihə metodu şəxsiyyətin fərdi keyfiyyətlərini inkişaf etdirmə üsulu hesab olunurdu və bu üsul P.P.Blonski, P.F.Kapterev, S.T.Şatski və başqalarının adı ilə bağlıdır.

Layihə tədqiqatının xarakterik xüsusiyyətləri bunlardır: *problemlər; məqsədlər; nəticə.*

Alimlərin araşdırmalarına əsaslanaraq belə nəticəyə gəlinir ki, layihə əsaslı təlim metodu problemli təlim metoduna çox oxşardır.

Təlim zamanı əldə edilən biliklərin ümumiləşdirilməsi əsasında layihənin aşağıdakı tərifi formalaşdırılır: müasir layihə şagirdin idrak fəaliyyətini aktivləşdirmək, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və onlarda müəyyən şəxsi keyfiyyətləri formalaşdırmaq üçün didaktik vasitə kimi çıxış edir.

Layihə əsaslı təlimi digər fəaliyyət formalarından fərqləndirən əsas meyarlar aşağıdakılardır:

1) mövcud problemin yeni həllini təklif edən ideyanın olması;

2) yekun nəticənin reallığının yoxlanılması;

3) layihənin həyata keçirilməsi və nəticələrinin qiymətləndirilməsi;

4) kütləvi şəkildə istifadə olunması imkanlarının reallaşdırılması.

Sadalanan xüsusiyyətləri ümumiləşdirərək belə nəticəyə gəlmək mümkündür ki, layihə şagird üçün əhəmiyyətli olan problemin həllinə yönəlmiş, müəllim tərəfindən xüsusi təşkil edilən və şagirdlər tərəfindən müstəqil şəkildə yerinə yetirilən, konkret məhsulun yaradılması ilə nəticələnən fəaliyyətlər sistemidir. Layihə metodunun əsas məqsədi şagirdlərin özünütəhsil fəallığını inkişaf etdirməkdir. Təhsilalanlar öz yaradıcı və praktik fəaliyyətləri nəticəsində yeni bilik və bacarıqlara yiyələnir, bu bilik və bacarıqlar isə layihənin yekun məhsulunda öz əksini tapır.

Fəslin 2-ci paraqrafı ***"Layihənin strukturu"*** adlanır. Paraqrafda layihə anlayışı və layihə fəaliyyəti kimi bir məsələnin tədqiqi prosesində layihələrin tipologiyası ilə tanış olmaq, həmçinin onların əsas mərhələlərini və xüsusiyyətlərini vurğulamaq lazım olduğu qeyd olunur.

A.A.Bolşakova[1] layihənin problem, məqsəd, işin planlaşdırılması, ədəbiyyat, yazılı hissə, təqdimat kimi xüsusiyyətlərini vurğulayır.

---

[1] Большакова, А.А. Проектная деятельность в условиях реализации ФГОС // Проектная и исследовательская деятельность в условиях реализации ФГОС: сборник материалов конференции. Агентство образоват. инициатив, приклад. исслед. и консалтинга. – Северодвинск: «Перспективы», – 2012. – с.4-6.

N.F.Yakovleva[2] layihə metodunun didaktik dəyərini iki aspektdə – şagird baxımından və müəllim baxımından nəzərdən keçirir. Layihənin növü strukturu, metodlarını, məlumat mənbələrini və hesabat formasını müəyyən edir.

Şagirdlərin nöqteyi-nəzərindən layihə müstəqil, fərdi və ya qrup şəklində nəyisə yerinə yetirmək, maraqlı problemi həll etmək, öz imkanlarından maksimum faydalanmaq, faydalı bilikləri bir-birlərinə ötürmək, həmçinin özünü ifadə etmək və əldə olunan nəticəni ictimaiyyətə göstərməkdən ibarətdir.

Təlim layihələri üçün mövzu seçimi fərqli ola bilər. Bəzi hallarda mövzular təsdiq edilmiş dövlət proqramları çərçivəsində metodistlər tərəfindən formalaşdırıla bilər. Digər hallarda isə mövzunu fənn üzrə tədris vəziyyətinə, şagirdlərin maraq və qabiliyyətlərinə uyğun olaraq müəllim özü müəyyən edir.

Layihələrin tipologiyası çox müxtəlifdir. Hal-hazırda çox sayda müxtəlif təsnifatlar vardır. Alimlər bu məsələnin həllində müxtəlif yanaşma və prinsiplərdən istifadə edərək öz təsnifatlarını hazırlamışlar.

Paraqrafda qeyd olunur ki, layihələr xarakterinə və iştirakçıların sayına görə də fərqlənir.

Layihə fəaliyyətinin məqsəd və vəzifələri ötürülmüş material üzrə bilik və bacarıqların yoxlanılması; informasiyanın axtarışı və emalı bacarıqlarının inkişafı; müstəqilliyin və məsuliyyətin inkişafı; tədqiqat bacarıqlarının inkişafı; təhlil etmək və həll yollarını axtarmaq bacarığının inkişafı; komandada işləmək bacarığının inkişafıdır.

Layihə əsaslı öyrənmə keçirilən mövzuların dərindən öyrənilməsinə kömək göstərərk, didaktik imkanlarından istifadə etməyə imkan verir. Layihə üzərində işləmək prosesində müəllim və şagird arasında bərabər tərəfdaşlıq prinsipləri əsasında sıx şəxsi qarşılıqlı əlaqə var. Layihə metodunun köməyi ilə təhsil və təlimə "fəaliyyət" yanaşması həyata keçirilir.

Şagirdlərin yaradıcı layihə fəaliyyəti prosesində layihənin gedişində nəzərdə tutulan qrup qarşılıqlı fəaliyyəti şəxsiyyətin mühüm sosial keyfiyyətlərini tərbiyələndirməyə və inkişaf etdirməyə

---

[2] Яковлева, Н.Ф. Проектная деятельность в образовательном учреждении. Учебное пособие. 2-е изд., стер. / Н.Ф.Яковлева. – Москва: ФЛИНТА, – 2014. – 144 с.

imkan verir. Bu, kollektivdə işləmək, qarşılıqlı əlaqə qurmaq, bir-birinə kömək etmək, bir məqsədə doğru işləmək bacarığıdır.

I fəslin ***"Layihə əsaslı təlim üçün əsas tələblər sistemi və layihələrin növləri"*** adlanan 3-cü paraqrafında layihə əsaslı öyrənmə şagirdlərə nəzəri bilikləri elimdə real dünya problemlərinə tətbiq etmək imkanı verən təlim üsulundan bəhs edilir. Layihə əsaslı təlimdə şagirdlər tapşırıqları sinif otaqları və ya açıq havda yerinə yetirə bilərlər. Layihə əsaslı təlim məktəbəqədər yaşdan XI sinfə qədər və tələbələr üçün uyğundur.

Layihə əsaslı təlim şagirdlərin yaşına və mövzusuna görə dəyişir, bəzi tapşırqlar bir dərs müddətindən az davam edir, digərləri isə, uzunmüddətli tədqiqat layihələrinin tamamlanması bir ildən və ya daha çox vaxt tələb edə bilər. Layihə tapşırığı aşağıdakı yeddi meyarın əksəriyyətini və ya hamısını özündə birləşdirməlidir:

- Problemin qoyuluşu;
- Marağı stimullaşdıran və suallar yaradan sorğuya əsaslanan proses;
- Əvvəlki biliklərə əsaslanan yeni bilik və bacarıqların əldə edilməsi;
- Tənqidi düşüncə, ünsiyyət, əməkdaşlıq və yaradıcılıq kimi yüksək səviyyəli bacarıqların istifadəsi
- Şagird seçiminin təşviqi;
- Təlimatçı və ya həmyaşıd rəyi və təftiş imkanları;
- Problemin, tədqiqat proseslərinin, metodlarının və nəticələrinin ictimai təqdimatı.

Layihə metodu aşağıdakıları tələb edir:

1) sosial əhəmiyyətli vəzifə və ya problemin olması;

2) problemin həlli üçün aydın fəaliyyət planının olması, yəni. layihənin özünün dizaynı, xüsusən məhsulun növünün və təqdimat formasının müəyyən edilməsi;

3) məktəblilərin elmi-tədqiqat işlərinin olması;

4) layihə üzrə işin nəticəsinin – məhsulun olması (layihə üzrə işin hər mərhələsinin özünəməxsus məhsulu olmalıdır);

5) hazır işin təqdimatı.

Sinifdə layihə əsaslı öyrənmə həyata keçirərkən, şagirdlərin ehtiyaclarını nəzərə almaq, layihənin onlar üçün uyğun və maraqlı

olmasını təmin etmək vacibdir.

Layihənin strukturlaşdırılması həmişə layihə mövzusunun, onun növü və iştirakçıların sayının seçilməsindən başlamalıdır. Layihənin strukturu yaxşı düşünülmüş, dəqiq müəyyən edilmiş məqsədlər, hər bir layihə iştirakçısının marağını, sosial əhəmiyyətini və nəticələrin işlənməsi üsullarını tələb edir.

Layihələr müddətinə görə qısa müddətli, aylıq, perspektiv və uzun müddətli ola bilər.

Beləliklə, layihələrin tarixini, mahiyyətini, əsas tələblərini və növlərini, eləcə də layihə fəaliyyətinin səmərəliliyi şərtlərini təhlil etdikdən sonra belə nəticəyə gəlmək olar ki, bu təlim texnologiyasının hazırda geniş şəkildə dünyanın bir çox ölkələrində və Azərbaycanda da istifadə olunur.

**Cədvəl 1.3.1**
**Layihə metodundan istifadə edərkən müəllim və şagird fəaliyyətlərinin strukturu**

| Şagird | Müəllim |
|---|---|
| Fəaliyyətin məqsədini müəyyənləşdirir | Fəaliyyətin məqsədini müəyyən etməyə kömək edir |
| Yeni biliklər açır | Məlumat mənbələrini tövsiyə edir |
| eksperimentlər aparır | Mümkün iş formalarını ortaya qoyur |
| Həll yollarını seçir | Nəticələri proqnozlaşdırmağa kömək edir |
| Fəaldır | Şagirdlərin fəaliyyəti üçün şərait yaradır |
| Təlimin subyektidir | Əldə edilmiş nəticələri qiymətləndirməyə və çatışmazlıqları aşkar etməyə kömək edir |

Nəticə olaraq onu deyə bilərik ki, I fəsildə tənqidi, idrakı münasbiət bildirməklə fəsil üzrə səhih axtarışlar yolu ilə bu işə tam nail ola bilirik. Təhsil sisteminin hazırkı inkişafı mərhələsində layihə metodikası fəal şəkildə inkişaf etməkdə davam edir və nəzəri biliklərin rasional birləşməsi və konkret problemlərin həlli üçün onun praktiki tətbiqi hesabına getdikcə populyarlaşır. Layihə əsaslı metodika şagirdlərə yaradıcılıq potensialını üzə çıxarmaq imkanı verir və onlara sürətlə dəyişən dünyaya uyğunlaşmaq imkanı verir.

Layihə metodikası, şagirdlərə maraq doğuran problemləri təhlil etməyə və onların həlli yollarını tapmağa imkan verir; müvafiq şərait yaradır, həm qabaqcıl təlim fəaliyyətlərinin həm də perspektivli məqsəd

və vəzifələrin həllinə yönəldir. Beləliklə, getdikcə populyarlaşan layihə əsaslı öyrənmə müəllimlərə geniş çeşidli layihələrin təşkilində geniş imkanlar açır ki, bu da təkcə məktəblilərin fənnə marağını stimullaşdırmayacaq, həm də təcrübədə əldə edilmiş bilikləri mənimsəmək yolu ilə onların tətbiqinə imkan verən səmərəli iş qurmağa kömək göstərəcəkdi. .Layihə əsaslı təlim tənqidi düşüncəni təşviq edir, şagirdlərin təhsilini real dünya ilə əlaqələndirir, biliklərin uzunmüddətli saxlanmasına, ömür boyu öyrənməyə kömək edir.

Dissertasiyanın **II fəsli "İbtidai siniflərdə təlim prosesində layihə metodlarindan istifadə"** adlanır. Fəsil 4 paraqrafdan ibarətdir.

1-ci paraqraf *"**Layihə metodundan istifadə imkanları təlim fəaliyyətinin inkişaf vasitəsi kimi**"* adlanır. Kiçikyaşlı məktəblilərin dövrünün xüsusiyyətlərinə uyğun olaraq onlarla aparılan təlim metodları da diferensiallaşmasından danışılır. Belə metodlardan biri məhz layihə əsaslı təlimdir.

Qeyd olunur ki, ibtidai sinifdə şagird müxtəlif fənləri öyrənərkən öz yaşının imkanları səviyyəsində idrak, yaradıcı fəaliyyət metodlarına yiyələnməli, ünsiyyət və informasiya bacarıqlarına sahiblənməli, təhsilini davam etdirməyə hazır olmalıdır.

İbtidai siniflərdə layihə əsaslı təlimin özünəməxsus xüsusiyyəti vardır. Bu prosesdə uşaq müəllimin rəhbərliyi altında elmi anlayışlarla tanış olur, dünyagörüşünü və baxışlar sistemini formalaşdırmaq qayğısına qalır. Layihə əsaslı təlim koqnitiv bacarıqları inkişaf etdirir. Bu təlim vasitəsi ilə şagirdlər ətrafımızdakı dünyanı daha rəngarəng dərk edir.

Layihə əsaslı təhsil fəaliyyəti:

– şagirdlərə təlim fəaliyyətini müstəqil həyata keçirmək imkanı verir;

– təlim məqsədlərini təyin etməyə istiqamətləndirir,

– məqsədə nail olmaq üçün lazımi vasitə və üsulları axtarmaq və istifadə etmək imkanları yaradır;

– fəaliyyət prosesinə və nəticələrinə nəzarət edir və qiymətləndirir.

Layihə əsaslı təlim uşağın tədqiqat keyfiyyətlərinin geniş inkişafına kömək edir və uşağın özünü inkişaf etdirməsində aparıcı rol oynayur.

İbtidai siniflərdə layihə fəaliyyətini təşkil edərkən kiçikyaşlı məktəblilərin yaşını və psixoloji və fizioloji xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bunu unutmaq olmaz, çünki ibtidai sinif müəllimlərinin əsas vəzifəsi uşaqlara layihə fəaliyyətlərini öyrətmək deyil, onları fəal prosesə daxil etməkdir.

Kiçikyaşlı məktəblilərlə layihə fəaliyyətindən istifadənin əsas xüsusiyyətlərindən biri müəllimin roludur. Şagirdlərin yaşını nəzərə alaraq, müəllimin rolunun da dəyişdiyini vurğulamaq yerinə düşərdi. Rəhbər və hərəkətlərin əlaqələndiricisi mövqeyindən müəllim aparıcı rola yiyələnir, köməkçi olur.

Layihə fəaliyyətini təşkil etmək üçün müəllim aşağıdakı metodik qaydaları ciddi şəkildə yerinə yetirməlidir:

1. Layihənin mövzusunu və məzmununu şagirdlərlə birlikdə müəyyən etməli;

2. Tədqiqatın və fərziyyənin obyektini müəyyənləşdirməli, məqsədi, vəzifələri və gözlənilən nəticəni formalaşdırmalı;

3. Layihənin praktik əhəmiyyətini müəyyənləşdirməli (layihə nəticələrinin harada və necə istifadə ediləcəyi);

4. Tədqiqat üsullarını müəyyən etməli (xüsusi ədəbiyyatın öyrənilməsi, internet vasitəsilə məlumatların axtarışı, laboratoriya müşahidələri, anketlər və s.);

5. Layihə fəaliyyətinin mərhələlərini, planın həyata keçirilməsi ardıcıllığını müəyyən etməli və layihənin hər bir mərhələsinin nəticələrini göstərməli;

6. Birgə fəaliyyətə cəlb oluna bilən sosial tərəfdaşları müəyyənləşdirməli;

7. Yaradıcı qruplar yaratmalı və onların hər biri üçün işin həcmini müəyyənləşdirməli;

8. Layihə fəaliyyətinin təqdimat formaları üzərində düşünməlidi.

Bu qaydalara riayət etmək müəllimə şagirdlərlə birgə fəaliyyətini sistemləşdirməyə imkan verəcək ki, bu da onların alqoritmik təfəkkürünü, gələcək üçün tapşırıqları görmək və formalaşdırmaq bacarığını inkişaf etdirməyə, layihə üzərində ardıcıl iş aparmağa kömək edəcək.

İbtidai siniflərdə layihə əsaslı öyrənmənin bir çox faydaları olsa da onu həyat keçirməyin bəzii çətinliklər mövcuddur. Bunlara nümunə olaraq;

1. Şagirdləri cəlb etmək: Kiçikyaşlı məktəbliləri cəlb etmək və onları layihə boyunca məşğul saxlamaq çətin ola bilər. Onları öhdəliklər saxlamaq və layihə boyu motivasiya etmək çətin ola bilər

2. Vaxtın idarə edilməsi: Layihə əsaslı öyrənmə ilə bağlı başqa bir problem vaxtı idarə etməkdir. Şagirdləri öyrənmə prosesisnə cəlb etmək və onlarda şüurlu mənimsəməni təmin edəcək təfəkkür əməliyyatları (qavrama, başa düşmə möhkəmləndirmə) səylərini təkminləşdirmə prosesləri çətinlik yarada bilir.

3. Layihə əsaslı öyrənmə çox vaxt çoxlu material tələb edir. Xüsusilə sinif otağı balacadırsa, bu, çətin ola bilər.

4. Layihə üzərində işləyərkən təlimatı fərqləndirmək çətin ola bilər. Bunun səbəbi bütün şagirdlərin eyni layihə üzərində işləməsi və müxtəlif səviyyələrdə ola bilməsidir.

5. Şagirdlərin biliklərinin qiymətləndirilməsi: Tədris materialının nəticələrini əxz etməyə maksimum səviyyədə qabaqcıl öyrənmə metodlarının tətbiqini də zəruri edir.

Beləliklə, tədris zamanı layihə metodundan istifadənin xüsusiyyətlərini araşdıraraq belə nəticəyə gələ bilərik ki, bu texnika realdır və ibtidai siniflərdə həyata keçirilməsi məqsədəuyğundur. Layihə üzərində işləmək məktəblinin sosial cəhətdən normallaşdırılmış fəaliyyətə girməsinin yollarından biridir ki, bu zaman uşaq öz müstəqilliyinin, azadlığının və məsuliyyətinin sərhədlərini müəyyən etməyi öyrənir.

II fəslin 2-ci paraqrafı ***"İbtidai siniflərdə təlim prosesində layihə metodlarından istifadə imkanları" adlanır.***

Burada qeyd olunur ki, təlim prosesinin səmərəliliyinin artırılması məqsədilə müəllim müxtəlif pedaqoji strategiyalardan istifadə etməlidir. Həmin strategiyalar arasında layihə metodu xüsusi əhəmiyyət kəsb edir. Bu metodun əsas xüsusiyyəti təlim fəaliyyətinin məqsədyönlü və planlı şəkildə təşkil olunmasıdır. Layihə əsaslı təhsilin başlıca məqsədi yaradıcı düşüncəyə malik, fəal mövqe nümayiş etdirən və ömürboyu öyrənmə bacarığı formalaşmış şəxsiyyət yetişdirməkdən ibarətdir. Sadalanan xüsusiyyətləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, layihə şagird üçün əhəmiyyətli olan problemin həllinə yönəlmiş, müəllim tərəfindən xüsusi təşkil edilən və şagirdlər tərəfindən müstəqil şəkildə yerinə

yetirilən, konkret məhsulun yaradılması ilə nəticələnən fəaliyyətlər sistemidir. Layihə metodunun əsas məqsədi şagirdlərin özünütəhsil fəallığını inkişaf etdirməkdir. Təhsilalanlar öz yaradıcı və praktik fəaliyyətləri nəticəsində yeni bilik və bacarıqlara yiyələnir, bu bilik və bacarıqlar isə layihənin yekun məhsulunda öz əksini tapır.

Layihələrin planlaşdırılması zamanı şagirdlərin maraq dairəsinə uyğun problemin seçilməsi, qərar qəbuletmə prosesində onların müstəqilliyinin təmin olunması, gözlənilən nəticələrin əvvəlcədən müəyyənləşdirilməsi, layihənin icra müddətinin planlaşdırılması, zəruri material və resursların seçilməsi, eləcə də layihənin həyata keçirilməsi üçün tələb olunan bilik və bacarıqların nəzərə alınması vacib şərtlər kimi qeyd edilir.

V.V.Guzeev[3] Avropa və Amerika versiyalarında layihə üzərində işləməkdə mərhələlərin ardıcıllığını bu cür vurğulayır. Amerika versiyasında bu belədir:

– gözlənilən təlim nəticəsinin formalaşdırılması;
– tədris materiallarının konsepsiyasının başa düşülməsi;
– bacarıqların öyrədilməsi;
– layihə mövzusunun tərtib edilməsi;
– layihə təklifinin hazırlanması;
– layihələrin tapşırıqlarının icrası;
– layihə hesabatının təqdimatı.

Avropa versiyasında layihə üzərində iş aşağıdakı mərhələlərdən keçir: 1. Hazırlıq; 2. Planlaşdırma; 3. Tədqiqat; 4. Nəticələr; 5. Təqdimat və ya hesabat. 6. Nəticələrin və prosesin qiymətləndirilməsi və s.

Hər bir layihə üzərində işə daxildir:

– 5-7 şagirddən ibarət qrup üçün ilkin təlimat;
– fərdi tapşırıqlar;
– fərdi tədqiqat fəaliyyətinin stimullaşdırılması.

Layihələr həyata keçirilərkən nəzəri və praktiki fəaliyyətlər birlikdə nəzərə alınır, çünki onlar vahid fəaliyyətin iki mərhələsini təmsil edir və icra prosesində praktiki fəaliyyətlər üstünlük təşkil edir.

Beləliklə, bir layihə üzərində iş mərhələlərinin bir neçə təsnifatının olduğunu öyrəndik. Təbii ki, layihənin yaradılmasının keyfiyyəti

---

[3] Гузеев, В.В. Метод проектов как частный случай интегрированной технологии обучения // Директор школы. – 1995. №4, – с 39-47.

və səmərəliliyi təkcə müəllimin bacarığından, şagirdlərin marağından və tamamilə asılı deyil həm də mövzunun aktuallığından asılıdır.

II fəslin ***"İbtidai sinifərdə Həyat bilgisi dərslərində layihə fəaliyyətinin təşkili istiqamətləri və nəticəsi"*** adlanan 3-cü paraqrafında ibtidai siniflərdə uşaqların dünya görüşünü artırmaq və ətraf aləmlə tanış etməkdir. Məktəbəqədər yaşlı uşaqlar üçün aparıcı fəaliyyət oyundursa, 7 yaşına qədər uşaq fiziki və psixoloji inkişaf səviyyəsinə çatır ki, bu da onu təhsil fəaliyyətini mənimsəməyə hazır edir. Bununla belə, unutmamalıyıq ki, ibtidai sinif uşaqları arasında aktiv oyun fəaliyyətinə ehtiyac qalmaqdadır, fəaliyyətin əsas motivi uğur əldə etmək motividir və onlar üçün təhsil fəaliyyətinin əsas motivi daim qorunmalı, idrakı inkşaf təmin etməlidir.

Layihə metodu şagirdlərin praktik tapşırıqların – layihələrin planlaşdırılması və yerinə yetirilməsi prosesində bilik əldə etdikləri təlim prosesidir. Layihə metodunun ümumi təhsil məqsədləri arasında üç əsası ayırd etmək mümkündür:

1. Layihə əsaslı təlimdə hər bir iştirakçının şəxsi inamının artırılmasına, onu həyata keçirməsinə və əks olunmasına töhfə vermək.

2. Şagirdlərdə nəticə əldə etmək üçün komanda işinin vacibliyi, əməkdaşlıq rolu, yaradıcı tapşırıqların yerinə yetirilməsi prosesində birgə fəaliyyət haqqında şüurun formalaşdırılması; uşaqları ünsiyyət bacarıqlarını inkişaf etdirməyə ruhlandırmaq.

3. Tədqiqat bacarıqlarını inkişaf etdirmək.

Bu metodun səmərəliliyi əsasən şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınmasından, müəllimin rolundan, yaradıcılıqdan, şagird qrupunun xüsusiyyətlərinin nəzərə alınmasından, seçim situasiyasının yaradılmasından və s. asılıdır.

Paraqrafda IV sinif şagirdləri arasında keçirilən şifahi sorğu zamanı əldə edilən göstəriciləri təhlil edərək belə nəticəyə gəldik ki, şagirdlərin yalnız üçdə birində şifahi və məntiqi təfəkkürün inkişafı yüksək səviyyədədir. Bununla yanaşı, orta inkişaf səviyyəsi, formalaşma səviyyəsi orta səviyyədən aşağı və aşağı səviyyədə olan şagirdlərə də rast gəlinir.

Bu paraqrafda aparılan şifahi sorğu eksperiment sorğusu əsasında müəyyənləşdirildi ki, şagirdlər həyat bilgisi dərsini digər

fənlərdən daha maraqlı hesab edirlər. Ancaq bəzi mövzuları tam anlamaqda çətinlik çəkirlər.

II fəslin 4-cü paraqrafı ***"İbtidai sinifərdə ingilis dili üzrə layihə fəaliyyətinin təşkili istiqamətləri və nəticəsi"*** **adlanır**

İbtidai sinifdə ingilis dilini təlimi aşağıdakı məqsədlərə nail olmaq məqsədi daşıyır:

1) şagirdlərdə ingilis dilinin müasir insanın həyatında və multikultural dünyanın rolu və əhəmiyyəti haqqında ilkin anlayışın formalaşdırılması, ingilis dilindən mədəniyyətlərarası ünsiyyət vasitəsi kimi istifadə etmək üçün ilkin təcrübənin qazanılması, başqa xalqların dünyasını və mədəniyyətini dərk etmək;

2) İbtidai siniflilərin şifahi (dinləmə və danışma) və yazılı (oxu və yazma) formalarında nitq imkanlarını və ehtiyaclarını nəzərə alaraq, ibtidai səviyyədə ingilis dilində ünsiyyət qurmaq bacarığını inkişaf etdirmək;

3) uşaqları ingilis dilindən faydalanmaq yeni sosial təcrübələrlə tanış etmək: kiçik məktəbliləri xarici həmyaşıdlar dünyası, uşaqların xarici folkloru ilə tanış etmək; digər ölkələrin nümayəndələrinə dost münasibət bəsləmək;

4) kiçikyaşlı məktəblilərin nitqinin, intellektual və idrak qabiliyyətlərinin, habelə ümumi təhsil bacarıqlarının inkişafı bacarıqlar; ingilis dilini daha yaxşı mənimsəmək üçün motivasiyanın inkişafı;

5) ingilis dilindən istifadə edən şagirdlərin təhsili və çoxşaxəli inkişafı.

Layihə metodundan faydalanaraq uğurlu iş aparmaq üçün kiçikyaşlı məktəblilər ümumi təhsil, məntiqi, problem qoyma və həll etmə hərəkətləri kimi universal təlim hərəkətlərinin inkişafı qayğısına qalmalıdırlar.

Ən vacib koqnitiv universal fəaliyyətlərdən biri problemləri həll etmək bacarığıdır. İbtidai sinifdə problemlərin həllinin ümumi texnikasını mənimsəmək məntiqi əməliyyatların formalaşmasına, obyekti təhlil etmək, müqayisələr aparmaq, ümumi və fərqli vurğulamaq, təsnifat, sıralama, məntiqi animasiya (məntiqi vurma) və analoqlar yaratmaq bacarığına əsaslanır.

Bu məqsədə çatmaq üçün biz aşağıdakı göstəriciləri diqqət mərkəzinə gətiririk:

– uşağın layihə fəaliyyətlərinə dəyərli münasibəti;
– uşağın layihə fəaliyyətinə hazır olması;
– informasiya axtarışını planlaşdırmaq bacarığı;
– məlumat çıxarmaq bacarığı;
– məlumatı işləmək bacarığı;
– dialoq aparmaq, kompromislər axtarmaq bacarığı;
– komandada vəzifələri bölüşdürmək bacarığı;
– komandada işləmək, həmkarlar və tərəfdaşlarla əməkdaşlıq etmək bacarığı
– layihə fəaliyyətlərində irəliləyişlərini qiymətləndirmək bacarığı.

Məqsədin qoyulması, 1-ci cədvəlin diaqnostik xəritəsində təqdim olunan müəyyənedici eksperimentin məzmununu (göstəricilərini) və üsullarını müəyyən etməyə imkan verdi.

Eksperimentin müəyyənedici mərhələsində 9-10 yaşlı uşaqların 1-ci metodikaya uyğun problemləri həll etmək bacarıqlarının səviyyəsi, uşaqlarda informasiya bacarıqlarının səviyyəsinin müəyyənedici eksperimentdə metodika 2 üzrə müəyyənləşdirilməsinin nəticələri, müəyyənedici eksperiment üzrə 3-cü metodikaya əsasən 8-10 yaşlı uşaqlarda ünsiyyət bacarıqlarının səviyyəsi, müəyyənedici eksperiment üzrə 4 metodikaya görə 9-10 yaşlı uşaqlarda layihə bacarıqlarının inkişaf səviyyəsinin nəticələrinin faizi, nəzarət bölməsi üzrə bütün metodikalarla 9-10 yaşlı uşaqlarda layihə bacarıqlarının inkişaf səviyyəsini müəyyən etmək üçün aparılan yoxlayıcı eksperimentin nəticələri, IV sinif şagirdləri arasında şifahi və məntiqi təfəkkürün inkişaf səviyyələrini, IV sinif şagirdləri arasında şifahi və məntiqi təfəkkürün inkişaf səviyyələri müəyyən edildi.

Yoxlayıcı eksperimenti zamanı aşağıdakı nəticələr alındı: diaqnostik nəticələri nəzərdən keçirərkən, ingilis dili dərslərində layihə metodunun uğurla həyata keçirilməsi üçün kiçik məktəblilərdə şifahi-məntiqi təfəkkürün inkişaf səviyyəsinin vəziyyəti tanındı. Müəyyənedici eksperimentin ümumi nəticələri məktəb təhsilinin ilkin səviyyəsinə layihə metodunun tətbiqinin zəruriliyini göstərdi, çünki ibtidai sinif şagirdlərinə xüsusiyyətləri müəyyən etmək, səbəb-nəticə əlaqələrini qurmaq, təhqiqat əlaqələri qurmaq, məntiqi mülahizə zəncirini qurmaq, fikrinizi sübut etmək, fərziyyələr irəli sürmək və onları əsaslandıra bilmək üçün obyektləri təhlil etmək bacarığı inkişaf etdirilməlidir.

Şagirdlərin dərslərdə layihə əsaslı öyrənmə üsulunu tətbiqi onlara keçirilən bütün dərsləri uzunmüddətli yadda saxlamağa kömək edir, həmçinin layihə üzərində işləmək akademik fənn kimi dil təliminə davamlı maraq yaradacaq və dil maneəsinin yaranması riskini azaltmağa kömək edəcək.

Layihənin nəticəsi şagirdlərin öz sevimli məşğuliyyətləri haqqında hekayə yazmaq və məşğuliyyətlərinə uyğun şəkillərdən istifadə edərək öz təqdimatları ilə çıxış etmək oldu.

Məqsədin qoyulması 1 -ci cədvəl diaqnostik xəritəsində təqdim olunan müəyyənedici eksperimentin məzmununu (göstəricilərini) və üsullarını müəyyən etməyə imkan verdi.

**Cədvəl 2.4.1.**

**9-10 yaşlı uşaqlarda layihə bacarıqlarının səviyyəsinin müəyyən edilməsi üçün diaqnostik xəritə**

| Layihə bacarıqları komponenti | Əsas göstəricilər | Metodika |
|---|---|---|
| Problemlərin həll edilməsi bacarığı | – layihə fəaliyyətlərinə dəyərli münasibət;<br>– layihə fəaliyy1ətlərinə hazırlıq; | Müşahidə |
| İnformasiya alma bacarıqları | – məlumat axtarışının planlaşdırılması;<br>– məlumatların çıxarılması;<br>– informasiyaların işlənilməsi | Müşahidə 1 |
| Ünsiyyət bacarıqları | – dialoq aparmaq, kompromislər axtarmaq bacarığı;<br>– komandada vəzifələri bölüşdürmək bacarığı;<br>– komandada işləmək, həmkarlar və tərəfdaşlarla əməkdaşlıq etmək bacarığı | Müşahidə 2 |
| Sosial bacarıqlar | – layihə fəaliyyətlərində öz irəliləyişini qiymətləndirmək bacarığına malik olması | Müşahidə 3 |

“Diaqnostika müşahidə, müşahidə 1, müşahidə 2 və müşahidə 3 mərhələləri əsasında həyata keçirilmişdir.”

İbtidai siniflərdə təlimin səmərəliliyinin yüksəldilməsində

layihə metodundan istifadə üzrə təcrübi eksperimental işin nəticələri qarşıya irəli sürülən elmi yeniliyin səmərəliliyini yoxlamaq və təcrübənin formalaşması mərhələsində görülmüş işlərin nəticələrini qiymətləndirmək vəzifəsi qoyulmuşdur.

Məqsədə çatmaq üçün eksperimental işin nəzarət mərhələsinin aşağıdakı vəzifələri müəyyən edilmişdir:

1. IV sinif şagirdləri arasında şifahi və məntiqi təfəkkürün inkişaf səviyyəsinin təkrar diaqnostikasının aparılması.

2. İlkin və təkrar diaqnostikanın nəticələrini müqayisə edilməsi.

3. Görülən işlərin səmərəliliyi haqqında nəticə çıxarılması.

Qarşıya qoyulan məqsədə nail olmaq və irəli sürülən vəzifələri həll etmək üçün görülən işlərin nəticələrini qiymətləndirmək məqsədilə ibtidai sinif şagirdlərində şifahi və məntiqi təfəkkürün inkişaf səviyyəsinin təkrar diaqnostikası aparılmışdır.

Kiçik yaşlı məktəblilərdə şifahi və məntiqi təfəkkürün inkişaf səviyyəsinin qiymətləndirilməsi müəyyən etdiyimiz meyarlar və səviyyələr əsasında aparılmış və nəticələr cədvəllərdə göstərilmişdir.

Beləliklə, eksperimental iş zamanı əldə edilən nəticələri təhlil edərək belə nəticəyə gələ bilərik ki, layihə metodunun tədris prosesində tətbiqi və layihədən istifadə edərək işin təşkili nəticəsində kiçik məktəblilər arasında şifahi və məntiqi təfəkkürün inkişaf səviyyəsi yüksəlir.

IVsinif şagirdlərinin şifahi və məntiqi təfəkkürün inkişaf səviyyəsini müəyyən etmək üçün ilkin və təkrar diaqnostikanın müqayisəli təhlili irəli sürdüyümüz elmi yeniliyin düzgün olduğunu və eksperimental işdən müsbət nəticələr əldə etdiyimiz qənaətinə gəlməyə imkan verdi.

Tədqiqatla bağlı aşağıdakı **nəticələr** əldə edilmişdir:

1. Layihə metodu yeni pedaqoji təlim texnologiyası deyil lakin ənənəvi sinif sisteminə mümkün alternativdir. Müasir məktəb təhsilində bu texnikanın tətbiqi zərurəti təhsil sistemində şagird şəxsiyyətinin daha tam inkişafına, onun real fəaliyyətə hazırlanmasına yönəlmiş aşkar tendensiyalarla bağlıdır.

2. Tədqiqat göstərdi ki, ibtidai siniflərdə təlim prosesində layihə metodundan getdikcə daha çox istifadə olunur ki, bu da özünün xarakterik xüsusiyyətləri ilə bağlıdır:

a) layihə metodologiyası müəllim və şagirdlər arasında (ənənəvi sinif-dərs sistemində olduğu kimi) subyekt-obyekt əlaqəsi olmadığı halda şagirdin şəxsi potensialının reallaşdırılmasına yönəlməsi mühüm əhəmiyyət kəsb edir.Müəllimin fasilitator, məsləhətçi rolunda çıxış etməsi təlim keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir.

b) layihə metodologiyası ingilis dili nitq fəaliyyəti prosesində şəxsi-fəaliyyət yanaşmasına uyğun olaraq kommunikativ səriştənin mənimsənilməsini nəzərdə tutur. Fəaliyyət komponenti iki şəkildə həyata keçirilir. Yaradıcı tərtibat zamanı nəzəriyyə ilə təcrübə arasında əlaqə müşahidə olunur. Şagirdlər divar qəzeti, yumoristik fotokollaj, müsahibə yazısı, jurnal, gündəlik kimi yaradıcı məhsullar ərsəyə gətirərkən qazandıqları elmi bilikləri öz şəxsi təcrübələrinə tətbiq edir və müxtəlif tapşırıqların optimal həlli üçün fəal iş aparırlar müəyyən elmi bilikləri, öz təcrübələrini tətbiq edirlər. Digər tərəfdən, layihə işi prosesində olan şagirdlər aktiv zehni fəaliyyətə cəlb olunurlar. Şəxsiyyət yönümlü öyrənmə ilə şagirdin kommunikativ-idrak ehtiyacı onun nitq fəaliyyətinin daxili motivinə çevrilir, dil isə əsas funksiyasını – fikirlərin formalaşması və formalaşmasında çıxış edir.

3. Tədqiqat göstərdi ki, layihənin metodologiyası fərdi-fəaliyyət yanaşmasına əsaslanır və daha çox linqvistik şəxsiyyətin formalaşmasına, inkişafına və təkmilləşdirilməsinə, deməli, bütövlükdə məktəblilərin ingilis dili kommunikativ və mədəniyyətlərarası səriştəsinin təkmilləşdirilməsinə kömək edir.

4. Araşdırmalar göstərdi ki, layihə metodu təlimin keyfiyyətinin yüksəldilməsi üçün ibtidai siniflərdə tətbiq olunan ən geniş istifadə olunan üsullardan biridir. Bu metoddan istifadə uşağın şəxsiyyətinin inkişafına və fərdiləşməsinə, şagirdlərdə bilik əldə etmək üçün motivasiyanın formalaşmasına kömək göstərir. Layihə metodunun xüsusiyyətinə görə, kiçikyaşlı məktəbli öyrənilən dil haqqında biliklərə yiyələnir, həm də fəallıq və yaradıcılıqlarını inkişaf etdirirlər. Eyni zamanda, müəllimin əsas vəzifəsi uşağı maraqlandırmaq, onu fəaliyyət mühitinə cəlb etməkdir. İngilis dilinin öyrənilməsi zamanı idrak motivləri məhz şagirdlərin yaradıcı layihə fəaliyyətlərinə cəlb edilməsi vəziyyətində aydın xarakter daşıyır.

5. Araşdırmalardan görünür ki, ibtidai sinif şagirdlərinin yaradıcılıq fəaliyyətinin səmərəli təşkili üçün pedaqoji şərait müşahidə edildikdə layihə metodunun tətbiqi öyrənmə motivlərinin və təlim marağının inkişafına müsbət təsir göstərir.

6. Həyat bilgisi fənni üzrə layihə əsaslı öyrənmə şagirdlərin ətraf mühitlə bağlı problemləri araşdırmaq və həll yolları təklif etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırır. Eksperimentin nəticələri göstərdi ki, şagirdlər layihələrində bu problemlərə yaradıcı və praktik həll yolları təqdim etməyi bacarırlar.

7. Şagirdlərin hərtərəfli inkişafını təmin etmək üçün, həyat bilgisi fənni üzrə layihə əsaslı öyrənmənin tətbiqi şagirdlərdə əməkdaşlıq və qrup iş bacarıqlarını inkişaf etdirir, məsuliyyət hissini formalaşdırır.

8. Layihə metodundan faydalanmaq bacarığı müəllimin yüksək ixtisasının, onun mütərəqqi tədris və inkişaf metodlarının göstəricisidir. Müəllim öz işində şagirdlərin motivasiyasını formalaşdırmaq üçün digər müəllimlərin təcrübəsindən yaradıcı şəkildə faydalandıqda təlim keyfiyyətinin yüksəldilməsi mümkün olur.

9. Şagirdlərin hərtərəfli inkişafını təmin etmək üçün, həyat bilgisi fənni üzrə layihə əsaslı öyrənmənin tətbiqi, onlarda ekoloji maariflənmə və məhsuliyyət hissini dərinləşdirir, onların təbiətə daha diqqətli yanaşmasına və onu qorumağa, təlabatın yaranmasına təşviq edir.

10. Araşdırmalar göstərdi ki, layihə əsaslı təlim prosesində materialın təqdim edilməsi forması baxımından çevik olduqda, şagirdlərin dərketmə imkanları genişlənir və keyfiyyətin yüksəldilmısinə zəmin yaranır.

11. Layihə üzərində işləmək şagirdin sosial normallaşdırılmış fəaliyyətə daxil olmasının yollarından biridir ki, bu zaman uşaq öz müstəqilliyinin, azadlığının və məsuliyyətinin sərhədlərini müəyyən etməyi öyrənir. Bu texnologiya uşağa əxlaq, ünsiyyət kimi keyfiyyətləri tərbiyə etməyə imkan verir, yaradıcılıq bacarıqlarını inkişaf etdirir, cəmiyyət üçün faydalı iş görmək bacarığını aşılayır, gələcək nəsli müasir həyata uyğunlaşdırır. Bununla belə, şagirdlərin layihə fəaliyyətinin təşkili prosesində yaranan tendensiyalar ortaya çıxan təcrübəni tənzimləmək zərurətindən xəbər verir, şagirdlərin həm akademik, həm də sosial-emosional inkişafına müsbət təsir edərək, onların gələcəkdə uğurlu fərdlər kimi yetişməsinə zəmin yaradır.

Tədqiqatın məzmunundan, əldə etdiyimiz nəticələrdən irəli gələn aşağıdakı **təkliflərin** nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1. İbtidai siniflərdə təlimin səmərəliliyinin artırılmasında layihə metodunun mühüm rola malik olduğu nəzərə alınaraq, müəllimlərin bu pedaqoji texnologiyanın imkanlarından daha geniş istifadə etmələri məqsədəuyğun hesab edilir..

2. Layihə əsaslı öyrənmədə motivlər təkcə eksperimental olaraq deyil, daimi gündəlik iş zamanı formalaşmalıdır. Kiçikyaşlı məktəblilər üçün bu cür iş, ilk növbədə, davamlı inkişafa yönəldilməlidir.

3. Layihə metodunun daha səmərəli tətbiqi məqsədilə tədris resurslarının və elmi-pedaqoji nəşrlərin sayının artırılması, həmçinin onların ibtidai sinif müəllimlərinə çatdırılmasına diqqət yetirilməsi faydalı ola bilər

4. İbtidai sinif müəllimlərinin layihə metodundan istifadə sahəsində peşəkar bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müvafiq təlim və ixtisasartırma proqramlarının təşkili məqsədəuyğun hesab olunur.

5. İbtidai siniflərdə layihə metodunun tətbiqi və onun təlim keyfiyyətinə təsiri ilə bağlı elmi-praktik konfransların, seminarların və təcrübə mübadiləsi tədbirlərinin müntəzəm keçirilməsi faydalı ola bilər.

***Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:***

1. Layihə əsaslı öyrənmənin bəzi xüsusiyyətləri // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, – 2022. №1, – s.23-25.
2. Azərbaycanlılıq və multikulturalizm // Azərbaycan Dillər Universiteti, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildonumunə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda V beynəlxalq elmi konfransın materialları. – Bakı: – 28 aprel, – 2022. – s.47-48.
3. Layihə metodunun tarixi və mahiyyəti // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, – 2023. №1, – s.142-146.
4. Формы и виды проектного метода, используемые в инклюзивном образовании // Московский педагогический государственный университет, Психолого-педагогические проблемы

современного оброзования: пути и способы их решения: сборник материалов VI международный научно-практической конференции. – Дербент, Республика Дагестан. Махачкала: Издательство АЛЕФ, – 27 fevral, – 2023. – с.469-473.
5. Layihə metodu ibtidai siniflərdə idraki universal təlim fəaliyyətinin inkişafı vasitəsi kimi // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2024. №1 – s.52-57.
6. Layihə növlü təlimlər və onlara verilən başlıca tələblər // – Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2024. №1, – s.241-247.
7. İbtidai siniflərdə xarici dil dərslərində layihə metodundan istifadə // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2024. Cild 91, №1, – s.170-174.
8. Layihə əsaslı öyrənmənin xarici dil dərslərinə tətbiqinin üstünlükləri // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2024. №3, – s.121-124.
9. Use of project-based learning in foreign language lessons in primary grades // – France: Journal of science. Lyon, – 2024. №52, – p.23-25.
10. Azərbaycan təhsilinin inkişafında ulu öndərin rolu // Lənkəran Dövlət Universiteti, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş “Gəncləşən və müasirləşən Lənkəran Dövlət Universiteti Lənkəran şəhərinin türk dünyasının gənclər paytaxtının simvoludur” mövzusunda respublika elmi-praktiki konfransın materialları. – Lənkəran: – 24 may, – 2024. – s.132-133.
11. Ulu öndər Heydər Əliyevin təhsilə qayğısı // Azərbaycan Dillər Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildonumunə həsr olunmuş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda VII beynəlxalq elmi konfransın materialları. – Bakı: – 7 may, – 2024. – s.315-317.
12. Key challenges in implementing project method in primary school // İnternational Scientific Symposium “Comman Victory: The Army and the Great Leader” dedicated to the victory of the Azerbaijani people in the Karabakh war. Proceedings Book. – Kars. Türkiye: – 31 mart, – 2024. – p.364-369.

13. Layihə əsaslı öyrənmənin faydaları // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı, Abbas Səhhət-150 "Vətəni sevməyən insan olmaz" movzusunda respublika elmi konfransının materialları. – Bakı: – 31 may, – 2024. – s. 363-364.
14. XXI əsrin bacarıqlarının inkişafında layihə əsaslı öyrənmənin təsiri // Naxçıvan Müəllimlər İnstitutu PHŞ Ali pedaqoji təhsil sistemində elm: "reallıqlar və perspektivlər" mövzusunda Beynəlxalq elmi konfransın materialları. – Naxçıvan / Azərbaycan: – 19-20 dekabr, – 2025, – s.101-105.
15. Layhə əsaslı öyrənmənin üstünlükləri və çatışmazlıqları // Sumqayıt Dövlət Universiteti Yaşıl dünya naminə həmrəylik ilinə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransı (NASCO XXVII), – Sumqayıt: –10-11 dekabr, – 2025, – s.622-626.
16. Layihə əsaslı öyrənmədə müəllimin rolu // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun, Elmi əsərləri, – 2025. №3, – s.66-70
17. Project-based learning in primary schools: a path to active learning // Міністерство Освіти і Науки України Черкаський національний університет імені Богдана Хмельницького ВІСНИК Черкаського національного Університету імені Богдана Хмельницького Серія Педагогічні науки. – Черкаси: – 2025. Випуск 1, – с.191-198.
18. Project based learning into primary life science lessons // Baltic International Academy, Baltic Journal of Legal and Social Sciences, Riga, Latvia: "Baltija Publishing". – 2025. – p.100-105.
19. The benefits of project-based learning in modern life for children // Профессионально-педагогическая культура учителя и преподавателя: теория и практика образовательной деятельности в современном обществе: сборник материалов X Международной научно-практической конференции, посвященной 85-летию кафедры педагогики НИУ «БелГУ». Белгород: ЦПП ИД «БелГУ» НИУ «БелГУ». – 20-21 марта, – 2025. – с.171-173.
20. Layihə əsaslı öyrənmənin strukturu // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri. – 2025. №1(61), – s.49-53.

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2026-cı il tarixində saat 16:00 da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi, 41 (Neftçilər korpusu).

Dissertasiya ilə Xəzər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası (https://www.khazar.org) Xəzər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 sentyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.09.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 38997 işarə

Tiraj: 100